Azərbaycan Respublikası
Odlar Yurdu Universiteti
Bakı şəh., AZ1072,
Koroğlu Rəhimov küç. 13

Azerbaijan Republic
Odlar Yurdu University
13 Koroghlu Rahimov st.,
Baku, Azerbaijan, AZ1072

Tel: +994 (12) 465 82 00; Fax: +994 (12) 465 67 05; Url: www.oyu.edu.az; E-mail: info@oyu.edu.az

S. Həsənova
Təbrik məktubu
müəllimlərə

№ 23/2559

"15" noyabr 2023-cü il

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru prof. C.E.Mahmudovaya**

**Hörmətli Ceyran xanım!**

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin ***100 illik yubileyi*** münasibəti ilə Sizi, şəxsinizdə bütün kollektivinizi Odlar Yurdu Universitetinin professor-müəllim heyəti və çoxsaylı tələbələri adından səmimi qəlbdən təbrik edirəm.

Bir əsrlik zəngin tarixə malik, respublikamızda milli mədəniyyətin və incəsənətin inkişafında mühim, mütərəqqi təhsil mərkəzi olmuş, ölkəmizin ali təhsil sistemində xüsusi mövqeyə malik Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti çox böyük keşməkeşli,şərəfli inkişaf yolu keçmişdir.

Azərbaycanda, keçmiş SSRİ-də, hətta dünyada necə-necə tanınmış mədəniyyət-incəsənət xadimləri, alimlər, ziyalılar, elm, təhsil nümayəndələri məhz ADMİU-da təhsil almışlar.

Bu gündə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin ziyalı kollektivi möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən göstərilən yüksək diqqət və qayğının nəticəsində, təhsildə, mədəniyyət-incəsənətdə yaradıcılıq uğurlarını zənginləşdirmək, dünya mədəniyyətinə, təhsilinə, elminə inteqrasiyanı sürətləndirmək üçün gərgin səylərini davam etdirməkdədirlər.

**Hörmətli cənab Rektor!**

Bir daha ***100 illik yubiley*** münasibəti ilə Sizi, şəxsinizdə ADMİU-nun bütün məzunlarını, professor-müəllim heyətini və tələbələrini Odlar Yurdu Universitetinin kollektivi adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edərək, sağlam həyat, xoş əhval - ruhiyyə, elmimizin, təhsilimizin, mədəniyyətimizin, incəsənətimizin, bu günü və sabahı naminə uzun ömür, can sağlığı arzu edirik.

**Hörmətlə,**

**rektor** **prof. Əhməd Vəliyev**

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ
PUBLİK HÜQUQİ ŞƏXSİ
Daxilolma № 11-02/574
1 vərəq
«20» Noyabr 2023 il